*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 1, 2025, səh. 162-166*

# TARİXŞÜNASLIQ

https://doi.org/10.59849/2410-5600.2025.1.162

UOT: 94(479.242).

**Çinarə Qəbulova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlalaiyyət küç. 26*
*e-mail: chinara.qabulova@mail.ru*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

**Xülasə**

Azərbaycan Respublikasının Prezidenti, Cənab İlham Əliyev müstəqillik dövrünü dəyərləndirərək deyib: "Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət, Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir". Ümummilli lider bütün dövrlərdə, həmçinin müstəqillik illərində Naxçıvana böyük diqqət göstərmişdir. O vaxt Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycan sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, Muxtar Respublika öz inkişaf dövrünü yaşayırdı. Müstəqillik illərində Naxçıvan hərtərəfli inkişafının ən yüksək zirvəsini yaşayırdı. Ulu Öndər Muxtar Respublikada görülən quruculuq işləri ilə həmişə yaxından tanış olub, tövsiyə və tapşırıqlarını əsirgəməyib. Məqalədə, həmçinin Böyük Qələbənin memarı Ali Baş Komandanımız İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində atdığı ən önəmli və vacib addımlardan da ətraflı söhbət açılır, o cümlədən Naxçıvanın ölkəmiz üçün, ümumilikdə, bütün Türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik olması vurğulanır. Bütün bunlar Ali Baş Komandanımızın dəmir iradə nümayiş etdirməsinin nəticəsidir.

***Açar sözlər:*** *dahi şəxsiyyət, prioritet, inkişaf, blokada, Vətən, azadlıq, vilayət, siyasi xadim, zəfər, dövlət.*

**Giriş**

*Naxçıvan adlı bir diyar var. Bu diyar dünya xəritəsində nə qədər kiçik görünsə də, son dərəcə qədim, əzəmətli, qürurlu və əyilməzdir. Qol-qola verən nəhəng dağlar bu kiçik diyarı üzük qaşı kimi dövrəyə alaraq onu amansız, tamahkar, iblis xislətli yağılardan qoruyur. Naxçıvan torpağı Ana Azərbaycandan ayrı düşsə də, fikri, düşüncəsi, əməli ilə onun yanındadır.*

*Adı Nuh peyğəmbərin adından götürülən bu diyar tarixin burulğanlarından uğurla çıxaraq, Azərbaycan Respublikasının tərkibində Muxtar Respublika kimi formalaşmışdır. 9 fevral 1924-cü ildə Azərbaycan Respublikasının tərkibinə Muxtar Sosialist Sovet Respublikası (MSSR) kimi daxil olsa da, sovet imperiyasının süqutundan sonra Naxçıvan öz adındakı "Sovet Sosialist" sözlərindən imtina etdi və Azərbaycan Respublikası tərkibində Naxçıvan Muxtar Respublikası adlandı. Beləliklə, 1990-cı ildən Naxçıvanın müstəqillik həyatı başlandı. Hələ keçən əsrin 80-ci illərinin sonlarında imperiya daxilində Araz boyu sərhədləri sökən, SSRİ-nin tərkibindən çıxdığını elan edən yeganə torpaq Naxçıvan torpağı*

*idi. Vaxtı ilə Stalinin "təhlükəli torpaq" adlandırdığı bu muxtariyyət, doğrudan da, imperiya üçün təhlükəli oldu. İmperiyadan qopan və blokada şəraitində yaşayan bu ölkə dəmiryolundan məhrum edilmiş, kommunikasiya xətləri kəsilmiş, elektrik enerjisinə, qaza həsrət qalmışdı. İşsizlik, yoxsulluq, dondurucu şaxtalı hava müstəqilliyin ilk illərində əhalini uçurumun kənarına gətirmişdi. Belə bir vaxtda xalqımızın böyük oğlu Heydər Əliyev Moskvadan ata yurdu Naxçıvana qayıtdı. Onun qayıdışı ilə xalq yenidən canlandı. 1990-cı il 17 noyabrda üçrəngli milli bayrağımız dövlət bayrağı kimi qəbul edildi. Xalq xilaskar oğlunun köməyilə uçurumdan adlamağı bacardı. Türkiyə və İrana gedən yollar açıldı. O zaman Sədərəkdən Türkiyəyə uzanan körpü "Ümid körpüsü" adlanırdı. Bu körpünün siyasi memarı isə Ulu Öndər Heydər Əliyev idi. Onun Naxçıvanda yaşaması, Naxçıvanı Azərbaycanın döyünən ürəyinə çevirdi.*

Zaman isə durmadan diktə edirdi. Azərbaycan erməni hücumundan, separatçı qüvvələrin iştahasından, ölkə daxilindəki hakimiyyət qovğasından əzab çəkirdi. Xalq gözünü Naxçıvana dikmişdi, dahi liderdən kömək istəyirdi. Heydər Əliyev xalqın səsinə səs verdi, harayına yetişdi. 1993-cü ilin 15 iyunu xalqın qurtuluş günü oldu [1, s.301-310].

Heydər Əliyev Naxçıvandan Bakıya getsə də, Naxçıvan bir daha ağır günlərə qayıtmadı. Müstəqilliyin hər bir ilində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı, kənd təsərrüfatı durmadan inkişaf etməyə başladı. Yeni-yeni sənaye müəssisələri, iş yerləri açıldı. Didərgin düşmüş Vətən övladları doğma ocaqlarına yığışmağa tələsdi. Kəndlər dirçəlməyə, əkin-tikin artmağa üz qoydu. Zəhmətə və zəhmət adamlarına verilən dəyər öz bəhrəsini göstərdi. Camaatın firavan həyatı başlandı.

Sərhədlərimiz möhkəmləndirildi, milli ordumuz gündən-günə gücləndi. Blokada şəraiti nə qədər ağır olsa da, muxtar dövlətimiz möcüzələr yaratdı. Köhnə fabrik-zavodlar bərpa olundu, yeni istehsal sahələri açıldı, Türkiyə və İranla əlaqələr genişləndirildi. Vayxır Su Anbarı, yeni elektrik satansiyaları tikildi, asfalt yollar –İpək yolu çəkildi, körpülər salınmağa başlandı. Naxçıvan şəhəri hər hansı bir Avropa şəhəri ilə yarışa biləcək gözəl şəhərə çevrildi.

Beş min illik Nuh şəhəri köhnəni və yenini özündə qovuşdurdu.

Heydər Əliyevin xüsusi nəzarəti və qayğısı ilə qədim abidələrə qarşı diqqət heyrət doğurur. "Gülüstan" türbəsinin bərpası, Naxçıvanqalanın və Əlincə qalasının ehtişamının özünə qaytarılması, Nuh peyğəmbərin məzarüstü abidəsi, Əshabi-Kəhf ziyarətgahının abadlaşdırılması, Hüseyn Cavid məqbərəsi, Bayraq meydanı, adlarını çəkdiyim və çəkmədiyim saysız-hesabsız quruculuq işləri Naxçıvan insanının yaradıcı əməyindən xəbər verir:

Müalicəvi əhəmiyyətinə görə digər duz şaxtalarından fərqlənən Duzdağ Fizioterapiya Mərkəzi unikal balneoloji ocağın tanıdılması və daha çox turist qəbul etməsi, eyni zamanda mineral sular muzeyi adlandırılan Naxçıvanda şəfaverici ehtiyatlardan istifadənin sürətlənməsi müstəqillik illərində Naxçıvanın daha bir uğurudur.

Naxçıvan Dövlət Universiteti, Naxçıvan Milli Elmlər Akademiyası, Naxçıvan Tibb Texnikomu və başqa təhsil ocaqları muxtar ölkəmizin elmi potensialının xəbərçisidir.

Müstəqillik illərində təhsil rəhbərliyin ən önəm verdiyi sahədir. Bu gün Naxçıvan Muxtar Respublikasında ölkənin intellektual gələcəyinə xidmət edən təhsilin inkişafı diqqət mərkəzində saxlanılır. Hər il yeni məktəb binaları tikilir, təhsil ocaqlarında müasir tədris avadanlıqları quraşdırılır, məktəblilərin istifadəsinə kompüter dəstləri və elektron lövhələr verilir. Müstəqillik illərində Naxçıvanda təhsil müəssisələri üçün yeni binalar tikilərək, mövcud binalar yenidən qurularaq istifadəyə verilib, onların maddi-texniki bazası möhkəmləndirilib. Muxtar Respublikada yeni məktəb binalarının istifadəyə verilməsi, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi sahəsində ardıcıl işlər aparılmışdır. Elə bir kənd yoxdur ki, orada yeni tipli məktəb binası tikilməsin. Kəndlərimiz daha uçuq-sökük kəndlər deyildir [2, s.55-59].

Özünün hərtərəfli inkişaf epoxasını yaşayan Naxçıvanın beş min illik tarixində ilk dəfədir ki, onun hətta ən ucqar dağ kəndləri də müasir şəhər görkəmi alıb, abadlaşıb, gözəl yaşayış məskəninə çevrilib. Böyük mütəfəkkir, publisist Viktor Hüqo bir zamanlar yazırdı: "Əsl liderin ömrünün bir yarısı vətənə, digər yarısı da xalqına xidmət etməkdən ibarətdir". Bəli, xalqımızın həqiqi lideri, ulu öndərin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycanın hər yerində, o cümlədən Naxçıvan Muxtar Respublikasının bütün sahələrində inkişaf və tərəqqi sürətli şəkildə özünü göstərdi. Müasir Naxçıvan bu gün yeni tipli Avrasiya şəhəri kimi diqqətləri özünə cəlb edir. Asfalt yollar, azman körpülər ən ucqar kəndləri şəhərə birləşdirir. Yeni inzibati binalar, iaşə ocaqları camaatın xidmətindədir. Yeddi rayonlu Muxtar Respublikamızın hər bir rayonu öz gözəlliyi ilə iftixar hissi doğurur:

Naxçıvan bütün dünyada boy göstərən Azərbaycan xalqının da dönməz iradəsini nümayiş etdirir. Şərqin bir qapısı var-nurlu, işıqlı, əbədi sabahlı Naxçıvan qapısı.

Qarabağla yaşıd olan Naxçıvan blokadasının da 34 illik düyünü açılmaqdadır. Qarabağ torpaqlarının işğalı ilə başlanan Naxçıvan blokadası torpaqların azad olunması ilə də aradan qaldırılır. Artıq Naxçıvan da Qarabağ torpaqları kimi, həsrət qaldığı anası Azərbaycanın qoynuna sığına biləcək, həsrəti sona yetəcək. Buna düşünülmüş siyasətin bəhrəsi olan 10 noyabr Bəyanatı ilə nail oluruq. Belə ki, 2020-ci ilin payızında, 44-cü gündə Ali Baş Komandan, Cənab İlham Əliyevin rəhbərliyi ilə İkinci Vətən müharibəsi qələbə ilə nəticələndi. 10 noyabrda üçtərəfli imzalanan Bəyanat isə ondan bir gün öncəki qələbənin üzərinə bir qələbə də əlavə etdi. Ermənistan kapitulyasiya aktını imzalamaqla təslim olduğunu bildirdi. Beləliklə, Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, itkisiz Azərbaycana qaytarıldı. Bəyanatın 9-cu bəndi isə Naxçıvanın blokadadan çıxması üçün dahi liderimiz, Ali Baş Komandanımız İlham Əliyevin təkidi ilə maddə olaraq Azərbaycan və İran arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması Qarabağ zəfərinin üzərinə yeni bir zəfər əlavə etdi. Bu həm də prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin növbəti diplomatik qələbəsidir. Bu memorandum regionun inkişafı üçün çox əhəmiyyətlidir. Zəngəzur dəhlizi Azərbaycanın Türkiyə vasitəsilə Avropaya, İran yolu ilə Asiyaya, Bakıdan keçməklə Rusiyaya doğru əlaqələrinin genişləndirilməsində böyük rol oynayacaq. Bununla da gələcəkdə regionda həm sosial-iqtisadi münasibətlər, həm də turizm əlaqələri daha da genişlənəcək. Naxçıvanla dəhlizin açılması, eyni zamanda Rusiyanın Türkiyə ilə, həmçinin Rusiyanın İranla faktiki olaraq Azərbaycan vasitəsilə əlaqələrinin qurulmasının mümkünlüyü deməkdir. Həm nəqliyyat, həm də elektrik enerjisi üçün nəzərdə tutulmuş bu dəhlizdən Ermənistan kənarda qaldı. Ağılsızlıqları ucbatından həmişə geridə qalan işğalçı dövlət kimlərinsə dəstəyi olmadan var olmadıqlarını bir daha sübut etdi. Sözsüz ki, yaxın gələcəkdə bu dəhlizdən istifadə üçün yalvarışlarının da şahidi olacağıq. Hələlik isə bu, bir reallıqdır ki, Zəngəzur dəhlizi Naxçıvan blokadasını yaracaqdır. İllərlə bu blokadanın yarılmaması üçün canla-başla çalışan ermənilərin əllərindən gələni etmələrinə rəğmən. Zəfər üstəgəl zəfər bu gün dövlətimizin prioritetidir. Hələ qarşıda neçə-neçə zəfərlər bizi gözləyir...

Bu müqavilədən 4 il keçməsinə baxmayaraq dəhlizin açılmasına Ermənistan erməniləri hələ də mane olur. İnanırıq ki, dəhliz açılacaq və kiçik Vətənimiz böyük Vətənə –Ana Azərbaycana qovuşacaq. O gün uzaqda deyil.

Qeyd etdiyim kimi, fenomen şəxsiyyət Naxçıvanda milli qurtuluşun, milli dövlətçilik quruculuğunun təməllərini özünün zəngin təcrübəsinə və Naxçıvanda daim yaşadılan qədim Azərbaycan dövlətçilik ənənələrinə əsaslanaraq atmışdır. Bu da təsadüfi deyildi. Çünki ulu öndər uzun illər Azərbaycan Respublikasına bacarıqla rəhbərlik etmiş, dünyanın iki nəhəng dövlətindən biri kimi tanınan Sovetlər İttifaqının aparıcı dövlət xadimlərindən biri olmuş, bütün bunlarla yanaş, Azərbaycanın qədim dövlətçilik ənənələrinə dərindən bələd olmuş, milli ideologiyanın əsasını qoymuş, milli maraqlarımızın məğlubedilməz müdafiəçisinə çevrilmişdir. Müdrik dövlət xadiminin siyasi fəaliyyətinin ayrı-ayrı

dövrlərində həmişə Naxçıvanın təhlükəsizliyinin möhkəmlənməsi və dayanıqlı inkişafı xüsusi diqqət mərkəzində olmuşdur [3, s.610-720].

Əldə edilən bu uğurlar bir daha deməyə əsas verir ki, Naxçıvanda Ulu Öndər Heydər Əliyev siyasi xətti uğurla, sədaqətlə davam etdirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarının təxirə salınmadan yerinə yetirilməsi, sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş Dövlət proqramlarının dəqiq icrası, islahatların günün tələbləri səviyyəsində aparılması Naxçıvanın sürətli inkişafını və yüksəlişini şərtləndirir. Bu isə məhz Ümummilli lider Heydər Əliyevin arzularındakı Naxçıvandır. Gündən-günə çiçəklənən, inkişaf edən, abadlaşan Naxçıvan.

Beləliklə, 90-cı illər Naxçıvan ədəbi mühiti üçün yeni təşəkkül və inkişaf mərhələsini təşkil edir. Bu inkişaf və təşəkkülün məhvərində isə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən fəaliyyəti və müdrik qərarları dayanır. Azərbaycan xalqının tarixi taleyi və müstəqillik dövrü mücadiləsi fonunda Ulu Ödər Heydər Əliyevin xilaskarlıq missiyası və liderlik obrazı bədii əksin ön planında yer tutur. Tam qətiyyətlə demək olar ki, müstəqillik dövrü Naxçıvan ədəbi mühitinin inkişafla müşayiət olunan ədəbi prosesində baş obraz Vətən-Azərbaycanın özü, ana mövzusunu isə azadlığına qovuşan Vətənin o illərdəki problem və qayğıları təşkil edir:

*Dünya duysun haqq səsimi, dünya duysun bu gücümü,*
*Bəlkə, onda insaf edib aydınladar güzgüsünü,*
*Nuh peyğəmbər yatan məzar deyir yurdun öygüsünü,*
*Azərbaycan torpağının üzük qaşı Naxçıvanım,*
*Nuhçıxanım, Nuhçıxanım, Nuhçıxanım, Naxçıvanım!*

**Nəticə**

*Naxçıvan torpağının qədimliyi Azərbaycan ərazisinin tarixi torpaqlarla zəngin olmasının daha bir sübutudur. Zamanın diktəsilə bu qədim və tarixi torpaq daha da inkişaf etmiş, bu gün müasir görkəmini almışdır. Ulu öndərimizin xüsusi qayğısı və nəzarəti ilə daha da inkişaf edib dirçələn bu qədim diyar müasir dövrümüzdə sürətli inkişafı və görünüşü, həmçinin sənayedə, təhsildə və tibbdə olan yenilikləri ilə daim diqqət mərkəzindədir.*

**Ədəbiyyat siyahısı:**

1. Əbülfəz Bərəkət (Qasımov). Şərqin qapısı. Naxçıvan diyarı (II hissə). Bakı, "Azərbaycan" nəşriyyatı, 2006-cı il. -390s.
2. İsmayıl Hacıyev və Şükür Məmmədov. Naxçıvan və naxçıvanlılar. Bakı, "Elm" nəşriyyatı, 2001-ci il. -275 s.
3. İsa Həbibbəyli. Nuhçıxandan-Naxçıvana. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2015-ci il. -845s.

**Chinara Gabulova**

## Nakchivan Autonomous Republic in the years of independence

***Summary***

The President of the Republic of Azerbaijan, Mr. İlham Aliyev, evaluted the period of independence and said: "The development of Nakhchivan  is closely related to the name of the Great

Leader Heydar Aliyev". The national leader paid great attention to Nakhchivan at all times, including during the years of independence. At that time, as everywhere in Azerbaijan, a period of rapid development was observed in Nakhchivan. Under the leadership of a genius, Azerbaijan was in the most advanced positions in the Soviet space, including in Nakhchivan, great social construction works were being carried out, and Nakhchivans industrial potential was being formed. İn a word, the Autonomous Republic was living its own period of development. During the years of independence, Nakhchivan experienced the highest peak of its comprehensive development. The Great Leader has always been closely acquainted with the construction works carried out in the Autonomous Republic, and has not spared his recommendations and assignments. The article also discusses in detail the most important and important steps taken by your Commander in Chief İlham Aliyev, the architect of the Great Victory, towards the liberation of the Nakhchivan Autonomous Republic from the blockade, including the fact that Nakhchivan is of great importance for our country, in general, for the entire Turkic world. All this is the result of our Commander in Chiefs iron will.

***Keywords:*** *genius, priority, development, blockade, Motherland, freedom, province, political figure, victory, state.*

*Filologiya üzrə fəlsəfə doktoru* ***Tünzalə Seyfullayeva***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*